# Sözün zəlzələ ağrıları,

## *yaxud,“yarı qəm, yarı qürur dastanı” haqqında düşüncələr*



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Birbaşa mənim rəhbərliyimlə nəşriyyata təqdim olunan kitabların mövzu aktuallığını, cəmiyyətin ovqatına təsir gücünü mütləq öyrənməyə çalışıram. Müəlliflərin nəşriyyata təqdim etdikləri, çapını arzuladıqları kitablarında nə demək istədiklərini mütləq başa düşmək istəyirəm. Bu da mənə imkan verir ki, çap üçün gələn kitabları diqqətlə izləyim.

Son dövrlərdə söz-sənət adamlarının həyat hadisələrinə bədii müstəvidə münasibət bildirmələri yazıçıların, şairlərin ictimai həyatda kifayət qədər fəallaşmasından xəbər verir. Açığı, mən də nəşr etdiyim kitablarda cəmiyyətin həyatı ilə bağlı məsələlərin bədii həllini, elmi müstəvidə təhlilini görəndə çox sevinirəm. Bu o deməkdir ki, elm həyatla qaynar şəkildə bağlıdır. Yazıçı, şair real həyatla nəfəs alır. Dövrün, zamanın problemlərini öz əsərlərində əks etdirməyə çalışırlar.

30 illik Qarabağ işğalının Azərbaycan xalqına nə qədər mənəvi-iqtisadi zərbə vurduğunu hər birimiz yaxşı bilirik. İş burasındadır ki, ölkəmiz mənəvi iqtidarını, Qarabağ tələbini bir an da arxa plana keçirmədi. Azərbaycan xalqı çoxetnoslu ölkə olaraq vahid mərkəzdə, eyni məram üzərində birləşdiyini sübut elədi. Azərbaycan dövləti zaman-zaman öz ərazisini işğalçıya güzəştə getməyəcəyini, dövlət başçısının timsalında nəinki işğalçı dövlətə, həm də bütün dünya ölkələrinə təkrar-təkrar çatdırırdı.

Ulu öndər Heydər Əliyevin ən böyük, ən ulu vəsiyyəti Şuşanın işğaldan azad olunması, Qarabağdan düşmənin qovulması idi. Biz qürurla deyə bilirik ki, qüdrətlənmiş, güclənmiş Azərbaycan dövləti və onun Ali Baş Komandanı ulu öndərin vəsiyyətinə əməl etdi. Ali Baş Komandan İlham Əliyev Heydər Əliyevin məzarı üstünə gedərək onun ruhunu salamladı və onun istəyinin yerinə yetirildiyini bəyan etdi. Bəli, Şuşa və Qarabağ işğaldan azad olundu. Və buradaca bir çox həqiqətlərin üzərinə daha aydın işıq salmağa ehtiyac var. Kimsəyə sirr deyil ki, Azərbaycan bədxahları tərəfindən az qala təklənmiş ölkə obrazında idi. İran, Fransa, digər işğala haqq qazandıran qüvvələr heç də Qarabağın azadlığından sevinmirdilər. Və artıq onlar bu gün özlərinin mənfur niyyətlərini açıq-aşkar bildirməkdən çəkinmirlər. Belə bir məqamda Türkiyə Azərbaycana dayaq oldu. Hər cür mənəvi və hərbi dəstək göstərdi. Doğrudur, Azərbaycan ordusu öz gücü ilə düşməni vurub Qarabağdan çıxardı. Amma əsas bir məqamı da unutmaq olmaz ki, Türkiyə böyük hərbi dəstək ilə dünyaya bəyan etdi ki, Azərbaycanın haqlı savaşına başqa bir qüvvə müdaxilə edəcəksə, onda Azərbaycan tək olmayacaq, Türkiyə onun dayağı olacaq.

Müharibədən sonra Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğanın qələbə paradında iştirakı və Azərbaycanın dövlət başçısı ilə birgə Şuşaya səfəri və məhz Şuşada xüsusi bəyanatla çıxış etmsi göstərdi ki, Türkiyə Azərbaycanı gələcəkdə də tək qoymayacaq. Bu, bizim üçün sözün həqiqi mənasında əvəzolunmaz gücün təsdiqi idi.

Həyat belədir; gözlənilməzliklərlə dolu olan həyatımız bizə hər zaman mənəvi borcumuzu yaddan çıxarmamağı təlqin edir. Bu mənada bəzi təbii və tarixi hadisələri məqamına görə, yetərincə xatırlatmağa ehtiyac var.

Bəri başdan deyim ki, bu qeydləri yazmağa lüzum görməzdim. Ancaq Rəcəb Tayyib Ərdoğanın Azərbaycana olan sonsuz sevgisi və bütün istiqamətlərdə mənəvi, maddi, hərbi dəstəyi mənim üçün də öz sözümü demək imkanı yaratdı. Bu, əlbəttə, mənəvi imkandır. Mən Rəcəb Tayyib Ərdoğanın yenidən prezident seçilməsi üçün məmnuniyyətlə səs verərdim. Çünki o həm də Azərbaycanın ən dar, ən çətin günündə Azərbaycan prezidenti ilə birgə oldu. Azərbaycan xalqının varlığını qorumaq yolunda qətiyyətli münasibət göstərdi. Bu mənada hər bir azərbaycanlı üçün Rəcəb Tayyib Ərdoğana mənəvi borcu başa düşmək, həqiqətə tapınmaq deməkdir.

Elə buna görə də dostum Əli Rza Xələflinin “Türkiyənin zəlzələ ağrıları - yarı qəm, yarı qürur dastanı” adlı kitabı ilə bağlı düşüncələrimi yazıya gətirməyə ehtiyac duydum.

Bir çox hallarda tarix insanları imtahana çəkir. Təklənmiş, gücdən, iqtidardan düşmüş dövlətləri işğalçı ölkələr hədə altına alır. Amma buna qarşı xalq öz gücünü səfərbər edəndə nəticə mütləq haqlı tərəfin xeyrinə həll olur. Bir də var, təbiət insanları sınağa çəkir. Dövlətləri sınağa çəkir. Xalqları sınaq meydanında sanki görmək və onun nəbzini yoxlamaq istəyir.

Çox acınacaqlı olsa da, Türkiyəmiz belə bir sınağa məruz qaldı. 6 fevral təbiət Türkiyəni sözün həqiqi mənasında sərhədsiz bir faciəyə düçar etdi. Bəri başdan deyirəm ki, heç bir düşmən sevinməsin. Bu təbiət hadisəsidir. Gələcəkdə kimləri, haraları belə bir sınağa məruz qoyacaq, bu məlum deyil. Ancaq bir neçə günlük sarsıntıdan sonra Türkiyə özünü, mənəvi mühitini bərpa etdi. Birmənalı şəkildə gücünü toparladı. Doğrudur, faciənin miqyası çox böyük idi. Bir neçə şəhər dağılmışdı. Türkiyənin bir çox əyalətləri zəlzələdən dəhşətli zərbələr almışdı. 50 mindən çox insan tələf oldu. Şəhərlər, kəndlər yerlə-yeksan oldu. Bütün bunlar insanlığın faciəsidir və belə bir faciəyə sağlam düşüncə daşıyıcısı olan hər kəs öz münasibətini bildirməlidir.

Mən müşahidə edirəm. Azərbaycanın demək olar ki, bütün kütləvi informasiya vasitələrində, televiziyalarda, qəzetlərdə Türkiyə faciəsi ilə bağlı canlı yayımlar verildi. Ən başlıcası, Azərbaycan ilk yardım göstərənlər sırasında idi. Fəlakət zonasına ezam olunan Azərbaycanın fövqəladə qüvvələri nə qədər insanı dağıntılardan altından xilas etdi. Nə qədər həlak olanı üzə çıxardı. Bütün bunlar Azərbaycanın Türkiyəyə nə qədər doğma və əziz olduğunun sübutu idi. Mən bütün bunların hamısını hələ son hesab etmirəm. Əsas mənim üçün dəyərli olan odur ki, Azərbaycan publisistləri, şairləri, yazıçıları, politoloqları, siyasi şərhçiləri yazdıqları ilə, dedikləri ilə Türkiyəyə mənəvi dayaq olmağa çalışdılar. Böyük fəlakətlə bağlı Azərbaycan mətbuatında yazılanları izləmək bəs edir ki, sözümün nə qədər doğru olduğuna şəkk olmasın.

Nəhayət, dostum Əli Rza Xələflinin “Türkiyənin zəlzələ ağrıları - yarı qəm, yarı qürur dastanı” kitabı nəşr üçün mənim əlimə gəldi. Açığı, kitabı çox həyəcanla oxudum. Ancaq qısa müddət ərzində “Türkiyənin zəlzələ ağrıları - yarı qəm, yarı qürur dastanı” poeması həcmcə kiçik olsa da, “Kredo” qəzetində dərc olunan kimi böyük əks-səda doğurdu. Ayrı-ayrı müəlliflərin əsər haqqında rəyləri saylarda işıq üzü gördü. Mən bütün bunları izləyirdim. Hətta özüm təklif etdim ki, ilkin rəylərlə bir yerdə həmin əsəri kitab halında çap etmək Türkiyəyə böyük mənəvi yardım olardı. “Türkiyənin zəlzələ ağrıları - yarı qəm, yarı qürur dastanı” adlı poemaya professor Təyyar Salamoğlu “Ön söz” yazmışdı və əsərin redaktəsini də öz üzərinə götürmüşdü. Rəyçilər Azərbaycanın tanınmış ziyalıları idi. Əməkdar mədəniyyət işçisi, publisist Adil Abdullayev, şair-ədəbiyyatşünas Sərvaz Hüseynoğlu, ədəbiyyatşünas Əli Bəbiroğlu sözün həqiqi mənasında əsərin ruhunu dərk edərək maraqlı rəylər yazmışdılar. Açığı, mən kitabı və rəyləri vərəqlədim və kitabın nəşri üçün nəşriyyatın - mətbəənin təəssüratını ifadə edən bir annotasiya hazırladım: “***Şair-publisist Əli Rza Xələflinin “Türkiyənin zəlzələ ağrıları” məsnəvi-poeması “Kredo” qəzetində (№10, (1140) 10 mart 2023-cü il) dərc olunan kimi ədəbi ictimaiyyətin ciddi marağına səbəb olub. Təkcə ədəbi mühit yox, geniş ictimaiyyətin fəal söz sahibləri əsəri müzakirə edib və rəylərini bildiriblər. Həcmcə kiçik olsa da, əhatə etdiyi fikir arenasına görə müxtəlif zamanları və ayrı-ayrı dövrlərə aid tarixi hadisələri əsər özündə ehtiva edir. Əlbəttə, əsərin əsas motivi Türkiyədə baş verən zəlzələ ilə bağlıdır. Müəllif bədii söz vasitəsi ilə doğma Türkiyəmizə mənəvi dəstəyini çatdırmaq istəyir. Kitabda verilmiş ön söz və rəylər də xalqımızın böyük kədərə münasibətinin əks-sədası kimi diqqəti cəlb edir. Kitabın geniş oxucu əhatəsində rəğbətlə qarşılanacağına inanırıq***”. Bu qeydlər yox yerdən, havadan yazıla bilməzdi. Mənim timsalımda əsəri nəşrə hazırlayan texniki redaktorun (Həkət Muradova), operatorun (Elvin Kamal), korrektorların (Şəhla Hacıyeva, Əməl Kərimova), dizaynerin(Lətafət Əliyeva) və digər texniki işçilərinin təəssüratını ifadə edirdi. Sanki hər birimiz - bütün mətbəə və kitabı nəşrə hazırlayan “Kredo” qəzetinin əməkdaşları Türkiyəyə mənəvi dayaq olmaq istəklərini bildirmək istəyirdilər.

Bəlkə də “Türkiyənin zəlzələ ağrıları - yarı qəm, yarı qürur dastanı” kitabı ümumi kitabçılıq ənənəsindən bir qədər kənara çıxdı. Çünki əsas əsər haqqında yazılanlar həcmcə əsərin özündən çox idi. Bütün bunları biz Türkiyənin tarixi taleyinə sevgimiz kimi araya-ərsəyə gətirməyə çalışdıq. Və sözün həqiqi mənasında çox dəyərli bir kitab alındı.

Açığı, əvvəlcə çox qısa danışmaq istəyirdim. Amma yazının mənəvi mühitinə daxil olduqca hiss edirəm ki, bu həcmcə kiçik kitab haqqında müxtəsər danışmaq mümkün deyil. Ən azı ona görə ki, böyük Şuşa bəyannaməsinin müəllifi kimi, müzəffər Ali Baş Komandanımızla birlikdə Şuşanın toxunulmazlığı haqqında bəyanat verən Ərdoğanın özünü biz tək qoya bilməzdik.

Ərdoğan sözün həqiqi mənasında Azərbaycan xalqının doğma övladı kimi o bəyannamədə həm böyük Türkiyəni, həm də özünü ifadə etdi. Görünür, məhz bu məqamları nəzərə aldığına görə Azərbaycanın görkəmli alimi Təyyar Salamoğlu kitab haqqında redaktor sözü kimi qələmə aldığı yazını “Sözün fatehi könüllərin fatehi haqqında” başlığı ilə təqdim edir. Sonra da belə bir qeyd verir: “Əli Rza Xələflinin “Türkiyənin zəlzələ ağrıları” məsnəvi poeması haqqında düşüncələr”. Sözün həqiqi mənasında, həm əsas başlıq, həm də müəllifin təqdim etdiyi ikinci yarımbaşlıq onun məramı haqqında kifayət qədər dolğun məlumat verir. Birincisi, professor, görkəmli Azərbaycan alimi Təyyar Salamoğlu müəllifi “Sözün fatehi” adlandırır və bunun arxasınca əsərin ədəbi qəhrəmanını - yəni Ərdoğanı könüllərin fatehi kimi təqdim edir. İlk baxışdan bu epitetlər emosional təsir bağışlayır. Amma yazının mahiyyətinə varanda görürsən ki, müəllif əsasssız söz demir. O, Türkiyənin düçar olduğu tarixi təbiət hadisəsini öz varlığından keçirir. Və bu ağrını birmənalı şəkildə düzgün qavrayır. İnsanlığın taleyi ilə bağlı yaşantılarını düşüncələri ilə ifadə etməyə çalışır: *“Kredo” qəzetinin 10 mart 2023-cü il nömrəsində diqqətimi ilk cəlb edən baş redaktor Əli Rza Xələflinin “Türkiyənin zəlzələ ağrıları” adlı şeiri oldu. “Ərdoğana və Türkiyəyə təskinlik üçün yarıqəm-yarıqürur dastanı” qeydi ilə çap olunmuşdu. Şeirin əsas hissəsi birinci səhifədə verilmişdi və onu baş vermiş dəhşətli hadisənin yaratdığı acı mənzərə-sarsılan, kədərli, için-için yanan ölkə Prezidentinin dəprəmzədələrlə birlikdə çəkilmiş və sanki heykəlləşmiş fotosu müşayiət edirdi”*. Nə qədər həssas, nə qədər duyğulu ifadələrdi. Elə bil ki, biz özümüz ruhumuzla fəlakətin acı mənzərəsinin göründüyü həmin yerə uçuruq. Kədəri də, sarsıntını da, həm müəllifin, həm də tənqidçinin düşüncələri içərisində yaşayırıq. Yəqin ki, sözün özü o zaman dəyərli olur ki, mənzərəni göstərmək gücündə olur.

**(Davamı 11-ci səhifədə)**

*(Əvvəli 10-cu səhifədə)*

Açığı mən Təyyar Salamoğlunu televiziya verilişlərində izləmiş, davamlı və ardıcıl tədqiqatlarını oxumuşam. Azərbaycan ədəbiyyatşünaslığının ən müxtəlif dövrlərinə aid təhlillərini diqqətlə izləmişəm. Onu hətta ən emosional çağlarda yazanda belə sakit, təmkinli, soyuqqanlı müəllif kimi tanımışam. Repressiya qurbanlarının taleyi haqqında əsərlərini maraqla oxumuşam. Ancaq heç vaxt heç bir tədqiqatında bu yazıda olduğu qədər emosional mənəvi mühitini hiss etməmişəm. Bütün bunlar mənə əsas fikrimi ifadə etməyə imkan verir ki, deyim; "Türkiyənin zəlzələ ağrıları" əsəri ən sakit müəllifi sakit, təmkinli sferadan çıxarmaq gücündədir. T.Salamoğlu sözünə davam edir: "*Ağrıları ağrımız idi. Biz də Azərbaycan xalqı olaraq bu ağrını yaşamaqda idik. Zəlzələnin sarsıdıcı zərbələrindən, yaratdığı problemlərdən, ən ümdəsi itirdiyimiz minlərlə türk qardaşımız üçün içimizdən keçən ağrıların təsirindən heç cür qurtula bilmirdik. Qardaş ölkədə baş verən zəlzələdən nə düşüncəmiz, nə də hissimizin azad ola bilmədiyi bir zaman idi. Odur ki, başqa materiallara, o cümlədən həmin nömrədə çap olunmuş yazıma ümumi bir şəkildə nəzər yetirmək fikrindən vaz keçib dostum olan baş redaktorun, əslində isə çağdaş milli ədəbi prosesimizin fenomenlərindən birinə çevrilmiş Ə.R.Xələflinin şeirini oxumağa başladım. Başlanğıcda, təbii ki, məni çəkən mövzu idi. Dostumun mövzuya necə bir bədii həll verdiyi də maraq dairəmdə idi*". Müəllif məsuliyyətli başlıqda ədəbi düşüncələrlə münasibət bildirmək istədiyi əsərdə həm də bədii meyarların gözlənilməsini əsas tutur, məsuliyyətini də unutmur. Bu da o*dir ki, hamı özünü unudaraq, yalnız bir məsələ haqqında düşünür: Türkiyəmiz bu ağırlığın altından qalxa biləcəkmi?*" Təqdim olunan parça ritorik sualla bitir. Çünki Təyyar Salamoğlu ədəbi tənqidimizdə nə qədər soyuqqanlı, sakit əhvallı bir ədəbiyyatşünas kimi tanınsa da, bədii əsərin onun ovqatını qanadlandırdığı zamanlarda nə qədər duyğulu olduğunu da gizlədə bilmir.

Mənə qəribəgələn odur ki, şair əsərdə özünü unuda bilər. Amma tənqidçinin özü də coşğun duyğularla özünü unudursa, demək, əsərin müəllifi istədiyinə nail ola bilib. Mən sözün həqiqi mənasında "Türkiyənin zəlzələ ağrıları - yarı qəm, yarı qürur dastanı" məsnəvi poemasının dəyərini gücünü uca tuturam və bu əsər haqqında düşüncələrimi davam etdirməkdə israrlıyam.

Kitabın nəşrindən sonra və hələ "Kredo" qəzetində dərc olunarkən başlanan əks-sədalar əsərin məğzi ilə bağlı hər bir oxucunu düşündürə bilər. Bu təbiidir, amma bu qədər coşqu, bu qədər hissiyyat nəylə bağlıdır. Əlbəttə, birinci növbədə poemanın yüksək emosional ruhda yazılması, türkün möhtəşəm tarixi ilə bu gününün çox dəqiq xarakterik cizgilərlə əlaqələndirilməsi istər-istəməz düşüncələri səfərbər edir. Sanki hər kəs özü də qəlbən, ruhən poemanın əhvalına qovuşur. Və bu zaman ümumi ansamblda öz yerini də görmək istəyir.

Sözün atəşli ruhun tənqidçi göydə duyur. Bir az da dəqiqləşdirsək, bu atəşləri, odları öz varlığında hiss edir. Poemanın müəllifi haqqında onun qənaəti belədir ki, sanki o özünü unudub, bütün varlığı ilə böyük fəlakətin arenasına daxil olub. İnsanlığın faciəsini öz gözləri ilə görür və onu varlığından gələn səslərə çevirir. Tənqidçi çox sərrast düşüncələrlə bu məqamı elə şeirin özünün ahənginə uyğun ifadələrdən dağıdıcı zərbə vurmağa çalışırlar.

Tənqidçi Təyyar Salamoğlu "Türkiyənin zəlzələ ağrıları" poemasında türklüyün tapına biləcəyi məqamlara diqqəti yönəldir. Hətta əsərdən məhz tarixə güvəncli məqamlarla türkün yenilməzliyini göstərən beytləri seçib oxucunun diqqətinə yönəldir:

*...Uçar olsan qızılquş, şahinsən göy üzündə,*
*Ulasan boz qurdusan millətin köy üzündə.*

*Qətiyyətin yol açır Türkün Tanrı dağına,*
*İradən işıq saçır Turanın bayrağına.*

*... Türkiyənin önündə Turana yol açırsan,*
*Alp Ər Tonqa ruhuna qəlbindən nur saçırsan.*

*Bilirik, Ərdoğansan - Bilgə Xaqan gücündə,*
*Qənim üstə ulayan Bozqurdsan qan gücündə.*

Hər hansı bir diqqətli oxucu sezər ki, tənqidçinin ustalıqla seçib diqqətə çatdırmaq istədiyi beytlərdə poemanın müəllifi bu günün oxucusuna nə demək istəyir. Ötəri olsa da, baxmaq bəs edir ki, bu mətndə Ə.Xələfli qədim türk düşüncəsindən günümüzə gələn yol xəritəsini möhtəşəm obrazlarla və həm də çox böyük bədii sərrastlıqla göstərir. Bilgə xaqanın, Bozqurdun, Alp ər Tonqanın, Türkün Tanrı dağının, Turanın bayrağının və nəhayət, Ərdoğanın özünün ad timsalında bu sırada göstərilməsi təsadüfi deyil. Bu obrazların hər biri türk birliyini arzulayanlar, bu birlik uğrunda çarpışanlar, bu birliyi gələcəyin türk üçün çıxış yolu hesab edənlər üçün güvənc qaynağıdır.

Çox istərdim ki, bu əsərdə müəllif uzaq Turanda, orta Asiyada türk birliyi uğrunda vuruşaraq həlak olan Ənvər Paşanın, Azərbaycanın dağıdılmasının, erməni iştahına qurban getməsinin qarşısını bö-

deməkdir ki, müəllif, yəni məqləanin müəllifi əgər onun düşüncələrini kifayət qədər təmin edəcək səviyyədə əsərlə qarşılaşmasaydı, başqa sözlə, estetik sarsıntılar keçirməsəydi, yəqin ki, heç öz qeydlərini də yazıya gətirə bilməzdi. Özü demiş, onsuz da indi irihəcmli əsərləri oxumaq üçün o qədər də münasibət vaxt yoxdur. Hadisələr isə gündən-günə daha dəhşətli miqyasını göstərməkdədir. Ən başlıcası, müəllif etiraf edir ki, o, əsəri oxuyanda ətrafını da, ümhitini də tamam unudub. Və çox səmimiyyətlə qeyd edir ki, "mən tamam fərqli bir aləmə düşmüşdüm". Həmin fərqli aləm əslində böyük insan kütlələrinin düçar olduğu fəlakətin özü idi və ən başlıcası, bu fəlakətin içində həyata inamını, gücünü, mənəvi təpərini qoruyan insanların özünü görmək, gözlərinin qabağına gətirmək demək idi. Açığı, Təyyar Salamoğlu o qədər səmimi, duyğulu bir münasibətlə əsəri xarakterizə edir, sanki canlı orqanizmi əsərin timsalında görür və bizə təqdim etməyə çalışır. Və mən bu yerdə Təyyar Salamoğlunun maraqlı mülahizələrini oxucuya təqdim etməkdən özümü saxlaya bilmirəm: *"Şair öz yaşantılarını səksən üç beytdə ifadə etmişdi. Onu da yaxşı xatırlayıram ki, şeirin, qəzetin birinci səhifəsində verilmiş beytlərini birnəfəsə oxuyandan sonra, hansısa bir hissin-düşüncənin təsiri altında dayandım. Zatən dayanmamaq mümkün deyildi. Beytlər başdan ayağa dəhşətli ağrılardan doğan yaşantıları canlandırırdı. Hiss olunurdu ki, baş verənləri həzm eləməyə şair qəlbinin gücü çatmır, baş verənlərə qarşı düşüncə məkanı olan beyin üsyan edirdi. Hiss olunurdu ki, lap yaxın zamanlara qədər Türkiyənin dünyada artan nüfuzundan, bütün türk dövlətlərinin böyük qardaşı olaraq öz missiyasını çox ləyaqətlə yerinə yetirməsindən, qırx dörd günlük müharibəmizdə bizə hər cür dayaq olmasından riqqətə gələn sənətkar varlığı (hissi və düşüncəsi) baş verənlərlə barışa bilmir, fələkdən gələnə qarşı ürəyinin ağrılarını Allahın qismən etdiyi ilhamla misralara çevirib, yüngülləşmək istəyir.Təsəllini qələmə sarılmaqda görür, ancaq təkcə özünə təsəlli üçün yox. Gələn dərd, bələnın miqyası o qədər ağır, o qədər gözlənilməzdir ki, sənətkarın özünü düşünməyə vaxtı yoxdur. Çünki söhbət Türkiyədə, bəzilərinin yüz ildən bir, bəzilərinin isə beş yüz ildən bir baş verə bilən hal kimi dəyərləndirdikləri zəlzələdən gedir. O qədər ağır bir vəziyyətdən söhbət gedir*lə təqdim edir: "Hiss olunurdu ki, şair özünü unudub, qardaş ölkənin və bütövlükdə türk dünyasının sağ ikən qəlblərdə heykəlləşən böyük liderinin ağrılarını yaşayır, acılarını bölüşmək istəyir, fikrən, hissən, bütün varlığı ilə onun yanındadır. Əlindən gələni edir ki, "Ərdoğana və Türkiyəyə" təskinlik olsun". Mən əvvəllər də demişəm və bir daha təkrar edirəm ki, Təyyar Salamoğlu bədii mətnə, yazıçı düşüncəsinin məhsuluna soyuqqanlılıqla, xüsusi bir təmkinli münasibətlə yanaşsa da, burada onun da emosiyalarının ruhundan daşdığını hiss edirik.

Mən, əlbəttə, tənqidçini müəllif emosiyasına uymaqda qınamıram. Çünki əsər elə başlanğıcından ürəkləri, qəlbləri titrədərək qarşısıalınmaz bir sel kimi çağlayıb gəlir.

Müəllif Ərdoğana müraciətlə onu təmkinə, dözümə səsləyir. Hətta niyyəti qara olanların təbii fəlakətin verdiyi imkandan fürsətcilliklə yararlanaraq Ərdoğanın ünvanına onu yaralayacaq ifadələr işlətməkdən çəkinmirlər. Elə müəllif də bunu nəzərindən qaçırmır və bu məqamı elə həm möhtəşəm türk oğluna, həm də bütövlükdə türk xalqına bir daha çatdırır:

*Qürurundan enmə sən, əyilmə sən, Sultanım,*
*İncimə bir kimsədən, öyülməsən, Sultanım...*

*Səni bilməyən kimsə özündən xəbərsizdir,*
*Özündən xəbərsizə dan üzü səhərsizdir...*

*Sənə qara yaxanlar qısırdır yaddaşından,*
*Ağırdır yara almaq dəlibaş qardaşından...*

*İftiralar, böhtanlar sel olsa nə aparar,*
*Tufanlar, qasırğalar qayadan nə qoparar...*

Tənqidçinin də qeyd etdiyi kimi müəllif bu əsərini həm də "yarı qəm, yarı qürur dastanı" adlandırır. Zənnimcə, əsərin ruhu ilk baxışdan bir-birindən xeyli aralı olan fikir çalarlarını birləşdirə bilir. Axı, insan övladı ən sonsuz qəmlərə belə düçar olanda yenə təskinliyi özündə, öz ruhunda axtarır. Qüruru, təmkini ona güc verir ki, qəmlərin varlığını sarsıtmasına yol verməsin. İnsan dözümünü səfərbər etməklə qəmlərin dağıdıcı gücü qarşısında dayana bilir.

Açığı, kimsəyə sirr deyil ki, bir çox bədxahlarımız bizim mənəvi birliyimizi dağıtmaq üçün istər Türkiyənin, istərsə də Azərbaycanın zəif tərəflərini axtarır. Məhz bu zəif hesab edə bildikləri tərəflər-yük sərkərdəlik məharəti ilə alan Nuru Paşanın... adlarını çəkəydi. Zənnimcə, bu adların özü də müasir türk tuhunun güc mənbəyidir. Və müəllifə öz məqsədini, məramını daha da aydınlatmaq üçün yardımçı ola bilərdi.

Şübhəsiz, istedadlı tənqidçi olaraq Təyyar Salamoğlu əsərin janrı ilə də bağlı maraqlı düşüncələrə rəvac verir. Hətta gəldiyi qənaətlər ən mübahisə sevən oxucunu belə razı salır. Nəhayət, tənqidçi əsərin mahiyyətinə ən müxtəlif tərəflərdən işıq salaraq müəllifin öz obrazına da yetərincə aydın münasibət bildirir: "İnsanın hər hansı bir hərəkətində ona ən çox səmimiyyət hissi bəraət qazandıra bilir. Bəlkə də əvvəldə demişik, buna baxmayaraq, bir də xüsusi şəkildə vurğulayırıq: Şair hər sözündə, misrasında, beytində, yaratdığı hər tabloda, mənzərədə səmimidir. Bu əsərdə şair ilhamını səmimilik coşdurur, səmimilik idarə edir. Əli Rzanın yaradıcılığına ötəri nüfuz belə, onun şeirlərinin qəmdən doğulduğunu görməyə kifayət edir. Sənətkarın ən yaxşı əsərləri onun qəmdən boğulan zamanlarda doğulan şeirləridir. "Türkiyənin zəlzələ ağrıları"nın dərddən boğulan şairin dərddən doğulan şeirləri arasındakı yeri müstəsnadır. Kədər bu şeirdə mədhin bəraət aktıdır".Tənqidçi nə qədər sərrast ifadə edir. Sanki bununla oxucuya demək istəyir ki, siz özünüz də olsaydınız, bu qədər qəmlərin içərisində məğrurluqla əzəmətini qoruyan türk oğlunun ən üstün tərəflərini qabağa çəkərdiniz. Zənnimcə, Əli Rza Xələfli də məhz Təyyar Salamoğlunun dediyi kimi əsərdə mədh elementlərinə elə bu səbəbdən rəvac verir.

Hər bir dövrdə yaddaşlarda qalacaq nadir əsərlər yazıla bilər. Hətta bəzən elə əsərlər də yazılır ki, milli-mənəvi dəyərləri dağıtmağa yönəlik olur. Amma elə şəkildə yazılır ki, yaddaşda qalır. Nə yaxşı ki, "Türkiyənin zəlzələ ağrıları - yarı qəm, yarı qürur dastanı" poeması türkün mənəvi birliyinə çağırış ruhunda yazılıb. Bu əsərdə türk tarixinə sevgi duyğuları qaşrısıalınmaz axınla oxucunun ruhuna daxil olur və unudulmaz notlar kimi yaddaşa yazılır.

"Türkiyənin zəlzələ ağrıları - yarı qəm, yarı qürur dastanı" əsərində elə maraqlı məqamlar var ki, bu barədə söhbət açmamaq ən azı insafsızlıqdır. Mən də yəqin ki, bu əsərlə bağlı düşüncələrimi davam etdirməyə çalışacam.

***(Davamı var)***